

bu artwork süni intellekt vasitəsilə hazırlanıb

/ code academy

# Kiber Təhlükəsizlik

#GələcəkBurada www.code.edu.az



"

Hücumun qarşısının alınmasının dəyəri, uğurlu hücumun vurduğu zərərin aradan qaldırılmasının dəyərindən qat-qat azdır.

# TİM KUK

Apple şirkətinin CEO-su

# KİBER TƏHLÜKƏSİZLİK QLOBAL DÜNYADA

İstər internet aləmində bizə aid olan şəxsi məlumatlarımızın, istərsə də, real həyatda dəyərli əşyalarımızın təhlükəsizliyini qorumaq ehtiyacını daim hiss edirik. Bunu təmin etmək üçün bir çox yol var. Real həyatda olduğu kimi, virtual dünyada da həm fiziki şəxslər, həm də böyüyən bizneslər texnologiyanın gətirdiyi üstünlüklərdən yararlanaraq daxili və xarici kiber hücumlardan özlərini müdafiə etməyə çalışırlar. Belə anlarda məhz peşəkarlara - kiber təhlükəsizlik mütəxəssislərinə ehtiyac duyulur.

Kiber təhlükəsizlik üzrə qlobal statistika göstərir ki, gündə 2200 kiberhücum olur, yəni orta hesabla hər 39 saniyədə bir kiberhücum baş verir.

Comparitech-in 2020-ci il araşdırmasına görə, dünyanın ən kibertəhlükəsiz ölkələri Danimarka (6,72), İsveç (8,40), Almaniya (9,39), İrlandiya (9,40) və Yaponiyadır (9,46) (Comparitech, 2021).

**Qlobal mütəxəssislərin sayı**

**4.6**
**milyon**

**2031-ci ilə qədər iş yerlərinin sayı**

**220**
**min**

**Aktiv remote iş vakansiyaları**

**4.500**

# KİBER TƏHLÜKƏSİZLİK CODE ACADEMY-DƏ

**Təhsilin**

**85%-i**

**praktiki iş üzərində və qlobal təcrübələrə əsaslanaraq hazırlanmışdır.**

Code Academy-də tədris edilən Kiber Təhlükəsizlik proqramı sektorun mövcud vəziyyəti və ehtiyacları əsasında hazırlanıb və kibertəhlükəsizlik sektorunda baş verən hadisələrə əsasən davamlı olaraq yenilənir. Proqramdakı bütün modullar nəzəri dərslərlə parelel real iş mühitində baş verən hadisələrin praktiki məşğələləri ilə tədris edilir.

**gross əmək haqqı**
**15.600 ₼/il**
**Junior specialist**

**gross əmək haqqı**
**40.800 ₼/il**
**Middle specialist**

**gross əmək haqqı**
**75.420 ₼/il**
**Senior specialist**

**Qeyd olunan əmək haqqıları tam ştat və remote iş imkanları nəzərə alınaraq hesablanıb.**

Tədris proqramı kibertəhlükəsizlik mütəxəssisi olmağa qərar verən namizədlər üçün sağlam təməllər üzərində kibertəhlükəsizlik mütəxəssisi yetişdirmək üçün tərtib olunmuşdur. Tədrisi uğurla bitirən tələbələr isə **Fortinet, COMPTIA A+** kimi beynəlxalq sertifikat imtahanlarında iştirak etmək hüququ qazanırlar.



# KEVİN MİTNİK

Amerikan kompüter təhlükəsizliyi məsləhətçisi, xaker

> Kibertəhlükəsizlikdə uğur qazanmaq üçün haker kimi düşünməlisən.

# TƏDRİS PROQRAMI

## IT Essentials

Bu modulda kompüter arxitekturası, əməliyyat sistemləri, şəbəkə arxitekturası, şəbəkə modelləri və protokolları, CMD və Powershell komandaları tədris olunur.

## Linux Fundamentals

Linux Debian və Redhat əməliyyat sistemləri, onlar arasındakı fərqlər, Ubuntu əməliyyat sisteminin quraşdırılması, Terminal və Bash komandaları, fayl oxuyucuları və editorlar, imtiyazlar, Linux şəbəkə konfiqurasiyası və alətləri, proses və servislər, planlanmış işlər, Linux təhlükəsizlik tətbiqləri, Linuxda veb və file serverin qurulması, backup-update-restore prosesləri tədris olunur.

## SQL Fundamentals

Bu modul SQL proqramlaşdırma dilində yazılan kodların izahını əhatə edir. Modul QL server arxitekturası, data növləri, DDL və DML alt sorğuları, verilənlər bazasının qurulması və dizaynı kimi vacib məqamları əhatə edir.

## Windows Server Fundamentals

Modulda Windows Server əməliyyat sisteminin quraşdırılması, Server rolları və funksiyaları, Active Directory, Group Policy Management, veb server quraşdırılması və idarə olunması, server sertifikatlarının tənzimlənməsi, Windows serverlərin backup və update olunması göstərilir.

## Programming Fundamentals

Proqramlaşdırmanın əsas prinsipləri, elementlər, alqoritmlər, obyekt yönümlü proqramlaşdırmanın əsasları və C proqramlaşdırma dilində sadə proqramların yazılmasını əhatə edir.

## Python

Tədris zamanı Python proqramlaşdırma dilinin qurulması, başlanğıc səviyyə Python bilikləri, funksiyaları, modul və paket qurulumu, obyekt yönümlü proqramlaşdırma, həmçinin, Pythonun veb, verilənlər bazası, fayl və socket proqramlamada tətbiqi öyrədilir.

## Introduction to Computer Security

Modulda kompüter sistemlərinə qarşı baş tutan Dirty Cow, Meltdown, Spectre,Shellshock, Buffer overflow və digər klasik və yeni hücum metodları və onlardan müdafiə mexanizmləri öyrədilir.

## Introduction to Internet Security

Bu modulda TCP/IP protocol dəstində olan boşluqlar, onlara qarşı olan MAC layer, UDP və TCP, IP və ICMP, DNS kimi hücumlar və onlardan yayınma üsulları, Firewall və VPN sistemləri tədris edilir.

## Introduction to Web Security

Proqramda veb server və brauzer təhlükəsizliyi, və onlara yönələn cross-site request forgery və scripting, SQL injection və clickjacking kimi məşhur hücum növləri və onlardan qorunma metodları tədris edilir.

## Introduction to Cryptography

Tədris zamanı kriptoqrafiyanın əsasları, gizli və açıq açarlar, bir tərəfli hash funskiyaları, onların real tətbiqlərdəki istifadəsi, üzləşdiyi təhlükələr və onlardan yayınma metodları öyrədilir.

## Ethical hacking & Pentest

Bu modulda əməliyyat sistemləri, IoT, simsiz və simli şəbəkə, mobil platformalara hücum və bu hücumlara qarşı müdafiə mexanizmləri tədris edilir.

## Security Engineering

Bu modulda Antivirus, IDS/IPS, Firewall, Syslog və Splunk, əməliyyat sistemlərinin hücumlara qarşı müdafiəsinin gücləndirilməsi tədris edilir.

## IT Audit

Modul fərqli idarə mexanizmləri və onların vacibliyi, IT auditin məqsədi və vacibliyi, müxtəlif test texnikalarını, ISO 27001 standartlarını əhatə edir.

## Incident Response & Digital investigation

Bu modulda əməliyyat sistemləri, şəbəkə və fayl sistemlərinə olan hücumların araşdırılması, hesabatların və logların, şəbəkədən axan məlumatların, email sistemlərinin analiz olunması tədris edilir.

# HANSI BACARIQLARA SAHİB OLACAQSAN?

- Kibertəhlükəsizliyin tətbiq olunduğu platformalar - şəbəkə, sistem və proqramlar barədə təməl biliklərin öyrənilməsi
- "Virus" və "malware"-lərin işləmə prinsipləri və verdikləri ziyanların analizi, öyrənilməsi
- Sosial mühəndislik üsulları ilə istifadəçi məlumatlarının əldə olunması metodlarının öyrənilməsi
- Korporativ mühitdə "security governance" yanaşmaları ilə sertifikatlaşdırma, siyasət və prosedurların tətbiq olunması
- Müxtəlif hücum metodlarından istifadə edərək sistemlər, şəbəkələr, proqram və vebsaytların kibertəhlükəsizlik boşluqlarının təyin olunması, "Pentest Report"-ların hazırlanması
- Firewall, WAF, IDS/IPS, EDR/XDR, SIEM, PAM tipli sistem və vasitələr köməyi ilə müxtəlif kiber mühitlərin təhlükəsizliyinin təmin edilməsi, hücumlardan qorunması
- Avtomatlaşdırılmış üsullarla hücumdan müdafiə sistemlərinin qurulması və tətbiqi

# KİBER TƏHLÜKƏSİZLİK SAHƏSİNƏ MARAĞI OLAN VƏ KARYERASINI BU İSTİQAMƏTDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.

> Əgər qəhvəyə IT təhlükəsizliyindən daha çox pul xərcləsən hack olunacaqsan. Üstəlik, buna layiq də olacaqsan.



# RİÇARD KLARK

Amerika milli təhlükəsizliyi üzrə ekspert

# CODE ACADEMY TƏLƏBƏSİ OLMAQ

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə eyni icmada olmaq imkanı qazanacaq, 6000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevriləcək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və Open Space ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcək.

**+8000**
**aktiv tələbə sayı**

**116**
**pedaqoji heyət**

**12saat / 7gün**
**"Open Space"-dən istifadə**



**Məzunlarımızın işlədiyi top şirkətlər**

PAŞA Bank · Kapital Bank · kontakt · Azercell · Google · HAVAS · GUAVAPAY · AZINTELECOM · Bolt · asan xidmət · bakcell · amazon.com · azericard · PAŞA Holding · endorphin

# TƏLƏBƏLƏRİMİZİN UĞUR HEKAYƏLƏRİ



**Nicat Dadaşov**
SOC Analyst
**Kapital Bank**

Uzun müddət karyeramı bu sahə üzrə qurmağa çalışdım və artıq gecdir dediyim anda Code Academy-dən Kiber Təhlükəsizlik tədrisində təqaüdlə iştirak haqqı qazandım. Akademiyanın mənə öyrətdiyi ən böyük dərs "xəyallarına çatmaq istəyirsənsə, doğru zamanda doğru yerdə olmalısan" oldu.



**Nahid Aslanov**
Cyber Security Analyst
**Azercell**

Code Academydə aldığım təhsilinin karyerama müsbət təsirini ilk dəfə müsahibələr zamanı texniki suallara çox rahat doğru cavab verə bildiyim anda başa düşdüm. Sonrasında başladığım təcrübə proqramında öyrəndiyim bilikləri bir başa tətbiq etməyə başladığımı görəndə doğru yolda olduğuma əmin oldum.



**Fərrux Məmmədov**
Penetration Tester
**Paşa Bank**

Fəxrlə bildirmək istərdim ki, mən də Akademiyamın Technest proqramı çərçivəsində açılmış ilk Advanced Cyber Security qrupunun məzunlarındanam. Tədris zamanı yarış tipli hücum strategiyaları planlayan komandanın tərkibində yer alaraq, bilik və bacarıqlarımı inkişaf etdirdim və bu gün ölkənin ən böyük banklarından biri olan Paşa Bankın kiber təhlükəsizlik komandasının bir üzvüyəm.



**Vidadi Kərimov**
Cyber Security Specialist
**eManat**

Peşəkar instruktor heyətinin tətbiq etdiyi effektiv tədris metodu sayəsində qazandığım təcrübə və bilik hal-hazırki iş həyatımda müxtəlif kompleks problemlərin həll olunmasında mənə böyük dəstək olur.

# ÇERİ MAKQUAYER

İnformasiya texnologiyaları
üzrə baş inzibatçı



"

Kibertəhlükəsizlik təkcə pis adamları dayandırmaq deyil; bu, innovasiyaları təmin etmək, məxfiliyi qorumaq və rəqəmsal dünyamıza inamı gücləndirməkdir.

# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 17 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 17 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 23 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 34 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 34 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 340 saat davam edir.

Növbəti tədris hədəfin: **Front-end əsaslı full stack**

Növbəti tədris hədəfin: **Back-end əsaslı full stack**



# BRYUS ŞNAYR

Amerikalı kriptoqraf

”

Həvəskarlar sistemləri sındırırlar, peşəkarlar isə o sistemləri hazırlayan şəxsləri.

code academy

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az